

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 93 (21.245)

11 may 2015-ci il, bazar ertəsi

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü günüdür.

Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları Onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Sonra dövlətimizin başçısı və ailə üzvləri oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri qoydular.

* * *

Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Heydər Əliyev Sarayının qarşısındakı parkda və şəhər mərkəzi parkında Gül bayramı təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Gül bayramında iştirak ediblər.



# Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü qeyd olunmuşdur






Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü Naxçıvan şəhərində qeyd olunmuşdur.

Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xalqımızın böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Nazirlik, komitə, baş idarə və müəssisələrin rəhbərləri, hərbi hissələrin komandirləri, elm, təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri abidə önünə tər güllər düzmüşlər.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti çoxəsrlik dövlətçilik tariximizdə mühüm yer tutur. Bütün həyatını doğma Azərbaycana və xalqına həsr edən ulu öndər bənzərsiz və müqayisəolunmaz şəxsiyyət idi. ***"Mən balaca bir evdə, zəhmətkeş ailədə, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram"***, – deyən dahi liderimiz həyatını Azərbaycan naminə mübarizəyə həsr edərək xalqımızın tarixində və taleyində silinməz izlər qoymuşdur.

Ümummilli liderimizin fəaliyyətinin hər anı xalqın, dövlətin və cəmiyyətin mənafeyinə xidmətdən ibarətdir. Azərbaycan tarixinin mühüm əhəmiyyətə malik 1970-1982-ci illərdəki təkamülü, 1993-2003-cü illərdə müstəqilliyin qorunması və möhkəmlənməsi naminə göstərilən siyasi iradə ulu öndərin adı ilə bağlıdır. 1969-cu ildə dahi rəhbər Heydər Əliyevin ölkəmizə rəhbər seçilməsi Azərbaycanda kompleks inkişafa təkan verdi. Əgər 1969-cu ilədək Azərbaycan ittifaq dövlətləri arasında inkişaf tempinə görə ən geridə qalmış ölkə kimi səciyyələndirilirdisə, 70-80-ci illərdə ulu öndərin rəhbərliyi ilə ölkəmiz sürətli inkişaf mərhələsinə qədəm qoymuş, aqrar sənaye kompleksinin sürətlə inkişaf etdiyi respublikaya çevrilmişdi.

Ümummilli lider 1969-1982-ci illərdə Azərbaycanda güclü iqtisadi potensial yarat-



maqla ölkəmizin gələcək müstəqilliyinin əsasını müəyyənləşdirmişdi. Bu dövrdə başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının əsas hərəkətverici qüvvəsi olmuşdur. Bu mənada ümummilli liderin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yolun başlanğıcıdır.

Bu inkişaf və tərəqqi salnaməsinin yazıldığı illər ötən əsrin 90-cı illərinin əvvəllərində öz yerini dağıdıcılıq, təsərrüfatsızlıq dövrünə buraxmışdı. Həmin dövrdə cərəyan edən ölkədaxili və regional siyasi proseslər Azərbaycanı uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistan ölkəmizə qarşı əsassız torpaq iddialarına başlamışdı. Belə bir şəraitdə ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı tarixi zərurətə çevrilmişdi. Ölkənin vətəndaş qarşıdurması, iqtisadiyyatın isə iflic vəziyyətində olduğu vaxtda bütün məsuliyyəti çiyinlərinə götürən, öz missiyasını xalqa və dövlətə xidmətə həsr edən ümummilli liderimizin 1993-cü il iyunun 15-də Azərbaycanda ali hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir.

Xalqının əsl lideri kimi vətəninə tarixi nailiyyətlər qazandıran, adını vətən tarixinin şərəf salnaməsinə çevirən ulu öndər Heydər Əliyev 1993-cü ildən sonra Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını dövlətçilik strategiyasının əsas istiqamətləri kimi müəyyənləşdirmişdi. Bu dövrdə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüşün əsası qoyulmuş, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə başlanmışdır. Bu illərdə Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, xarici ticarət əlaqələrinin genişləndirilməsi ümummilli liderin xidmətlərinin nəticəsidir.

Xalqa xidməti ən böyük xoşbəxtlik kimi dəyərləndirən ulu öndər deyirdi ki, ***"İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur".***

Xalqımız bütün varlığı ilə inanır ki, bu gün ölkədə həyata keçirilən siyasi xətt – Heydər Əliyev yolu Azərbaycanı daha böyük zəfərlərə qovuşduracaqdır. İndi ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyev yolu ilə inamla irəliləyir, regionda və beynəlxalq aləmdə böyük iqtisadi və siyasi uğurlara imza atır. Bütün bunlar ulu öndərimiz tərəfindən əsası qoyulan dövlətçilik ənənələrinin, daxili və xarici siyasi xəttin təntənəsinin daha bir göstəricisidir.

Ulu öndər Heydər Əliyevin quruculuq xəttinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikası da inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Həyata keçirilən iqtisadi islahatlar nəticəsində qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitlik yaranmış, iqtisadiyyat dinamik inkişaf etmiş və əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmış, dahi şəxsiyyətin ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin"*** arzusu reallığa çevrilmişdir.

Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş dahi rəhbərin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə bəhrələnəcəkdir.

Hər bir dövlətin inkişafı, uğurları siyasi lider amili ilə sıx bağlı olur. Heydər Əliyev-Azərbaycan, Azərbaycan-Heydər Əliyev anlayışı əbədi olaraq ölkəmizin inkişaf strategiyası kimi səslənəcəkdir.

Ardı 2-ci səhifədə





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov Heydər Əliyev Muzeyinə gələrək Azərbaycan dövlətinin qurucusu, ümummilli





lider Heydər Əliyevin həyat yolunu, çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxmışlar.

Bildirilmişdir ki, muzey ulu öndərin həyat və fəaliyyətinin, siyasi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı yerinə yetirir. Burada nümayiş etdirilən eksponatlar ulu öndərin ictimai-siyasi fəaliyyətini, keçdiyi həyat yolunu özündə əks etdirən dəyərli mənbələrdir. Hazırda muzeyin fondunda 4552 eksponat vardır. Burada zəngin fonda malik kitabxana da fəaliyyət göstərir. Muzeyin ekspozisiyasını internet üzərindən izləmək mümkündür.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov tədbir iştirakçıları ilə birlikdə ümummilli lider Heydər Əliyevin abidəsi önündə xatirə şəkli çəkdirmişlər.

Həmin gün Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında ümummilli liderin anadan olmasının 92-ci ildönümü münasibətilə konsert proqramı təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov konsert proqramına baxmışlar.

Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyev şair Elxan Məmmədovun "O, Heydər Əliyevdir" poemasından parçaları



bədii qiraət etmişdir.

Naxçıvan Dövlət Filarmoniyasının Kamera və Estrada orkestrləri, muğam üçlüyü maraqlı konsert proqramı təqdim etmiş, ulu öndərə, Azərbaycana həsr olunmuş mahnılar ifa olunmuşdur.

Sonda ümummilli lider Heydər Əliyevin öz səsi ilə hər bir azərbaycanlı üçün vətənpərvərlik şüarına çevrilmiş ***"Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"*** fikirləri səsləndirilmişdir.

Konsertdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov səhnə arxasına keçərək ifaçılarla görüşmüşdür.

Ali Məclisin Sədri uğurlu çıxışlarına görə ifaçıları və musiqi kollektivlərini təbrik edərək demişdir: "Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən bu möhtəşəm konsert proqramı, uğurlu ifalar ümummilli liderimiz Heydər Əliyevin şəxsiyyətinə olan ehtiramın daha bir ifadəsidir. Əgər ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycandakı mövcud vəziyyət davam etsəydi, sabitlik olmasaydı, mədəniyyətimiz də inkişaf etməz, incəsənət xadimləri öz istedadlarını nümayiş etdirə bilməzdilər. O siyasi liderlər böyük şəxsiyyətdir ki, özündən sonra da onun yolu və əməlləri xalqına, dövlətinə xeyir gətirir. Ümummilli liderimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu gün dahi şəxsiyyətin yolunu uğurla davam etdirir, ölkəmizdə bütün sahələrə, o cümlədən mədəniyyətin inkişafına qayğı göstərilir".

İfaçılar yaradılan şəraitə görə minnətdarlıq etmiş, muxtar respublika mədəniyyətinin inkişafına bundan sonra da öz töhfələrini verəcəklərini bildirmişlər.

Mayın 10-da Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə tədbirlər keçirilmiş, dahi şəxsiyyətin adını daşıyan mədəniyyət və istirahət parklarında konsertlər və xalq gəzintiləri təşkil olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının şahmatçılarına FİDE ustası, beynəlxalq qrossmeyster və beynəlxalq hakim dərəcələrinin diplom və döş nişanları təqdim olunmuşdur

Beynəlxalq Şahmat Federasiyasının qərarı ilə Naxçıvan Muxtar Respublikasının şahmatçılarından 1-i FİDE ustası, 1-i beynəlxalq hakim, 1-i isə beynəlxalq qrossmeyster dərəcəsi almışdır.

Mayın 10-da Naxçıvan şəhərindəki Şahmat Mərkəzində FİDE ustası, beynəlxalq qrossmeyster və beynəlxalq hakim dərəcələrinin diplom və döş nişanlarının təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov və Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov tədbirdə iştirak etmişlər.

Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov çıxış edərək demişdir ki, ölkəmizdə idmanın inkişafı diqqətdə saxlanılır, beynəlxalq dərəcəli idmançılar yetişdirilir. Zəka idman növü olan şahmatın inkişafı istiqamətində də kompleks tədbirlər icra olunur. Naxçıvan Muxtar Respublikasında da şahmat infrastrukturu ardıcıl şəkildə inkişaf etdirilir, beynəlxalq yarışlar təşkil olunur. Ulu öndərin anadan olmasının ildönümləri münasibətilə keçirilən şahmat festivalları da bu mənada mühüm əhəmiyyət daşıyır. Görülən işlərin nəticəsidir ki, artıq Naxçıvanda beynəlxalq dərəcəli şahmatçılar yetişir. Azad Rəhimov Naxçıvanda şahmatın inkişafına göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalını yüksək dəyərləndirərək demişdir ki, hər il keçirilən bu turnirə dünya şahmatçıları böyük maraq göstərir. İstər təşkilatçılıq, istərsə də iştirakçı şahmatçıların səviyyəsi festivalın əhəmiyyətini ilbəil artırır. Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafına göstərilən qayğı, yaradılan infrastruktur məmnunluq doğurur. Azərbaycan xalqının ümummilli lideri tərəfindən əsası qoyulan şahmata qayğı siyasəti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan bu il Şahmat üzrə Dünya Kubokuna və 2016-cı ildə Ümumdünya Şahmat Olimpiadasına ev sahibliyi edəcəkdir.

Kirsan İlyumjinov muxtar respublikada



şahmatın inkişafı sahəsində görülən işlərin və ənənəvi olaraq ulu öndərin anadan olmasının ildönümü münasibətilə keçirilən beynəlxalq şahmat festivallarının dünyada şahmatın inkişafı baxımından nümunə olduğunu bildirmiş, Naxçıvanın bundan sonra da zəka sahiblərinin əsl mübarizə meydanına çevriləcəyinə, peşəkar və yüksək reytinqli şahmatçıların yetişdiriləcəyinə əminliyini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir:

*Ardı 3-cü səhifədə*





“Bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivalının son turu keçirilir. Artıq 5-ci ildir ki, Naxçıvanda ulu öndərin anadan olmasının ildönümünə həsr olunmuş şahmat festivalları keçirilir. Şahmat birlik, dostluq və sülh oyunudur. “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalında 12 ölkədən 350-dən artıq şahmatçı iştirak edir. Bu cür festivalların keçirilməsi dünya şahmatçıları arasında əlaqələrin yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalında iştirak edən şahmatçılar ölkələri ilə Azərbaycan arasında körpü yaradırlar”.

Ali Məclisin Sədri şahmatın inkişafına göstərdiyi diqqət və qayğıya görə Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinova təşəkkürünü bildirmişdir.

Sonra diplom və döş nişanlarının təqdimatı olmuşdur.



Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov Pərviz Qasımova FİDE ustası və Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov Naxçıvan şahmat məktəbinin yetirməsi olan Urfan Sevdimalıyevə beynəlxalq qrossmeyster dərəcələrinin diplom və döş nişanlarını təqdim etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Şahmat Mərkəzinin direktoru Emin Hacıyevə beynəlxalq hakim dərəcəsinin diplom və döş nişanını təqdim etmişdir.

Emin Hacıyev muxtar respublikada şahmatın inkişafına göstərilən qayğıya görə naxçıvanlı şahmatçılar adından minnətdarlıq etmiş, bundan sonra da şahmatın inkişafı və təbliği sahəsində səylə çalışacaqlarını bildirmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının 9-cu turunun rəmzi gedişini etmiş, xatirə şəkli çəkdirmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü muxtar respublikamızda bayram əhval-ruhiyyəsi ilə qeyd edilib

## *Naxçıvan şəhəri*

***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə bayram konserti təşkil edilmişdi.***

Tədbirin aparıcıları bildiriblər ki, ümummilli lider Heydər Əliyevin zəngin elmi-nəzəri irsi tükənməyən bir xəzinə, gələcək nəsillər üçün nadir mənəvi mənbədir. Onun qurduğu, dinamik inkişaf yoluna çıxardığı müstəqil Azərbaycanın taleyi elə hər birimizin taleyidir. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirmiş fenomen şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazanıb, hələ sağlığında canlı əfsanəyə çevrilib.

Qeyd olunub ki, ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövr müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması ilə əlamətdardır.





Konsert proqramında Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının bir-birindən maraqlı musiqi nömrələri tədbirə bayram ovqatı bəxş edib. Azərbaycan Respublikasının Əməkdar artisti Gülüstan Əliyevanın, Naxçıvan Dövlət Filarmoniyasının solistləri – Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Hünər Əliyevin, Xatirə Səfərovanın, Tural Nəcəfovun, Elçin Nağıyevin, müğənnilərdən Zülfüqar Mahmudovun, Qəribə Həsənovanın, Nərmin Hüseynlinin, Samiddin Vəliyevin, Cəfər Tağıyevin və başqalarının ifasında bəstəkar və xalq mahnıları səslənib, filarmoniyanın rəqs qrupunun üzvləri müxtəlif rəqslərlə tədbir iştirakçılarında xoş ovqat yaradıblar.

## *Şərur rayonu*

Xalqımızın ümummilli lideri, bütün zamanların ən böyük azərbaycanlısı Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü muxtar respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da geniş şəkildə qeyd olunub. Ümummilli liderin respublikamızın digər bölgələrində olduğu kimi, Şərurda da silinməz izləri vardır. İstər ötən əsrin 70-80-ci illərində, istərsə də müstəqillik əldə etdikdən sonra Şərur rayonunda inşa olunmuş onlarla sənaye müəssisəsi, sosial-mədəni obyekt, suvarma qurğuları, çəkilən yollar, salınan körpülər məhz ulu öndərin yadigarlarıdır. Ulu öndərimizin bilavasitə rəhbərliyi və daimi nəzarəti





ilə yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan verib. Rayon sakinləri ümummilli liderimizin rəhbərliyi ilə həyata keçirilən tədbirləri bu gün minnətdarlıq hissi ilə xatırlayırlar. Ulu öndər bu bölgəyə yüksək qiymət verərək deyib: ***“Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz”.***

Rayon sakinləri ulu öndərin bu tövsiyələrini layiqincə yerinə yetirməyə çalışırlar. Rayonda bir sıra infrastruktur layihələri həyata keçirilib, onlarla müasir bina inşa olunub.

Mayın 10-da rayon ictimaiyyətinin nümayəndələri dahi rəhbərin İcra Hakimiyyətinin qarşısındakı əzəmətli abidəsi önünə gəlib, ümummilli liderə, onun əbədiyaşar siyasətinə sadiq olduqlarını bir daha nümayiş etdirib, abidə önünə tər güllər düzüblər.

Həmin gün axşamüstü Şərur şəhərindəki Heydər Parkında ulu öndərin anadan olmasının ildönümü münasibətilə geniş konsert olub. Konsertdə “Arpaçay” instrumental ansamblının müşayiəti ilə Bakıdan dəvət olunmuş Xalq artisti Gülyaz Məmmədova, ansamblın solistləri, Bəhruz Kəngərli adına Şərur Şəhər Uşaq incəsənət məktəbinin xor kollektivi rəngarəng mahnılar oxuyublar.

Konsert “Şərur” və “Şərur qönçələri” yallı ansambllarının çıxışları ilə başa çatıb.

## *Babək rayonu*

Muxtar respublikamızın ən böyük rayonlarından biri olan Babək rayonu yarandığı dövrdən Heydər Əliyev ideyalarından güc alaraq inkişaf edən bölgələrimizdəndir. Ötən əsrin 70-ci illərində məhz ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə təşkil edilən bu rayon dahi şəxsiyyətin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, ölkəmizin dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi həyata vəsiqə almışdır. 1978-ci il oktyabrın 23-də təşkil olunmuş yeni rayona xalq qəhrəmanı Babəkin adının verilməsi isə ulu öndərin siyasi iradəsi və qətiyyəti ilə yanaşı, həm də milli-tarixi ənənələrə böyük bağlılığının və sevgisinin nəticəsi idi.

Naxçıvan Muxtar Respublikasının digər rayonları kimi, Babək rayonu da son 20 ildə böyük inkişaf yolu keçmiş, rayonun yaşayış məntəqələri abadlaşdırılmış, yeni yollar salınmış, onlarla müxtəlifprofilli obyektlər tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində Babək rayonu muxtar respublikanın aqrar və sənaye məhsullarının istehsalında mühüm yerə sahib olmuş, burada digər sahələrin də inkişafına nail olunmuşdur.





Görülən işlərin Heydər Əliyev ideyalarına sadiqlikdən qaynaqlandığını dərk edən rayon sakinləri mayın 10-da ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünü bayram əhval-ruhiyyəsi ilə qeyd etmişlər. Rayon mərkəzindəki Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi önünə yüzlərlə insan toplaşaraq böyük öndərə öz sevgilərini bir daha nümayiş etdirmişdir.

Həmin gün rayon mərkəzində bayram konserti olmuş, konsertdə Azərbaycan Respublikasının Əməkdar artisti Gülüstan Əliyevanın, müğənni Şəbnəm Tovuzlunun və Babək Rayon Mədəniyyət Evinin “Zabul” instrumental ansamblı solistlərinin ifaları babəklilərdə əsl bayram ovqatı yaratmışdır.

*Ardı 4-cü səhifədə*

## Ordubad rayonu

*Mayın 10-da ulu öndərimizin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunun sakinləri xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin Ordubad şəhərindəki büstü önünə gələrək dahi rəhbərin əziz xatirəsini dərin ehtiramla yad etdilər, abidə önünə gül-çiçək dəstələri qoydular.*





Ulu öndərimizin büstünü ziyarət zamanı həmsöhbət olduğumuz rayon sakinləri bildirdilər ki, ümummilli liderimizin rayon üçün yadigarları saymaqla qurtaran deyil. Rayonun hərtərəfli inkişafı ulu öndərimizin Azərbaycana rəhbərliyinin hər iki dövründə diqqətdə saxlanılıb. Zəngin fauna və floraya, tarixi-mədəni abidələrə malik olan Ordubad şəhərinin əvvəlcə qoruq, sonra rayon ərazisinin yasaqlıq elan edilməsi, müstəqillik illərində burada milli park yaradılması, yeni istehsal müəssisələrinin işə salınması dahi şəxsiyyətin bu bölgəyə böyük qayğısının ifadəsi kimi indi də yaddaşlarda yaşayır.

Ulu öndərimizin böyük diqqət göstərdiyi Ordubad bu gün tarixiliyini saxlamaqla ən abad və füsunkar bir yurd yerinə çevrilib. Bütün bunlar muxtar respublikada dahi rəhbərimizin yoluna sədaqətin bəhrələridir. Odur ki, xalqımızın dahi oğlu rayon sakinləri tərəfindən daim minnətdarlıqla, böyük sevgi hissləri ilə xatırlanır, ümummilli liderimizin xatirəsi əziz tutulur.

Həmin gün Azərbaycan Respublikasının Əməkdar artisti Lalə Məmmədova və Ordubad Rayon Mədəniyyət Evinin solisti İsrafil Arifoğlu rayon sakinləri qarşısında konsert proqramı ilə çıxış etdilər. Ümummilli liderimizə, Onun bizə miras qoyduğu çiçəklənən Azərbaycana, eləcə də Naxçıvana həsr olunmuş mahnılar tədbir iştirakçılarında xoş ovqat yaratdı.

## Culfa rayonu

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü Culfa rayonunda da böyük bayram əhval-ruhiyyəsi ilə qeyd olunmuşdur.*





Muxtar respublikamızın qədim tarixə və mədəniyyətə malik olan Culfa rayonu bu gün özünün hərtərəfli inkişaf dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə rayonda bütün sahələrin inkişafı diqqətdə saxlanılmışdır. Ötən əsrin sonlarında dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanda torpaq islahatlarına ilk dəfə Culfa rayonunun kəndlərində başlanmış, kəndli əkib-becərdiyi torpağın sahibinə çevrilmişdir. Tarixi, iqtisadi, sosial, mədəni sahələrdə atılan addımlar son 20 ildə rayonun hərtərəfli inkişafına geniş imkanlar açmışdır. Bu yeni inkişaf mərhələsində rayonun kənd yaşayış məntəqələrinin böyük əksəriyyətində kompleks quruculuq işləri aparılmış, onlarla məktəb binası, səhiyyə ocağı, mədəniyyət obyekti tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Kənd yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzi olan Culfa şəhəri də bu quruculuq və abadlıq tədbirlərindən öz nəsibini alaraq daha da gözəlləşmişdir. Görülən bütün işlər əhalinin rahatlığının təmin olunmasına şərait yaratmış, onları Heydər Əliyev ideyaları ətrafında daha da sıx birləşməyə sövq etmişdir.

Rayon sakinləri onlara bu xoşbəxt günləri bəxş edən ümummilli liderimizin misilsiz xidmətlərini unutmurlar. Culfalılar dahi şəxsiyyətin anadan olmasının 92-ci ildönümündə ulu öndərimizin Culfa Rayon İcra Hakimiyyəti binasının qarşısındakı büstü önünə gələrək Ona hörmət və ehtiramlarını nümayiş etdirmişlər.

Mayın 10-da axşam rayon mərkəzində bayram konserti olmuş, konsertdə Azərbaycan Respublikasının Xalq artisti Mələkxanım Əyyubovanın və Culfa Rayon Mədəniyyət Evinin "Çeşmə" instrumental ansamblı solistlərinin ifasında mahnılar səsləndirilmişdir.

## Kəngərli rayonu

*Dünən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü Kəngərli rayonunda da geniş qeyd olunub. Rayon sakinləri ulu öndərin əziz xatirəsini böyük hörmətlə yad etməklə dahi şəxsiyyətə olan dərin ehtiramlarını bir daha nümayiş etdiriblər. Həmin gün xalqımızın böyük oğlunun rayon mərkəzində ucaldılmış abidəsi yüzlərlə insanın axın etdiyi məkana çevrilib.*





Ulu öndər Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi Kəngərli rayonunun da inkişafına böyük töhfələr verir. Ümummilli liderin nurlu yolunun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2004-cü il martın 19-da Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzaladı. Yeni rayonun yaradılması mindən çox yeni iş yerinin açılmasına, bölgə iqtisadiyyatının güclənməsinə, ailələrin məskunlaşmasına şərait yaratdı. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa bir müddət ərzində muxtar respublikanın digər rayonlarının inkişaf səviyyəsinə çatdı.

Rayon sakinləri ilə söhbətimizdə də bu məsələyə toxunuldu, ulu öndərin və onun layiqli davamçısının Vətən, xalq üçün göstərdiyi misilsiz xidmətlərdən söz açıldı. Rayon sakini Rəşid Məmmədov bildirdi ki, ümummilli liderin ideyalarının muxtar respublikada həyata keçirilməsi bütün bölgələrimiz kimi, Kəngərli rayonunu da gözəlliklər diyarına çevirdi. Tarix üçün çox qısa bir dövrü əhatə etsə də, ötən illər ərzində burada mühüm infrastruktur layihələri həyata keçirildi, Kəngərlinin sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş verdi.

Mayın 10-da axşam saatlarında Qıvraq qəsəbəsindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında konsert proqramı olub. Konsert proqramında rayon Mədəniyyət Evinin "Kəngər" instrumental ansamblının, böyüklərdən və kiçiklərdən ibarət yallı kollektivinin, Çalxanqala kənd mədəniyyət evinin sazçalanlar qrupunun və Bakı şəhərindən dəvət olunmuş Musa Musayevin, Təranə Qumralın, Vahidə Zeynalovanın ifaları rayon sakinlərində əsl bayram əhval-ruhiyyəsi yaradıb.

## Şahbuz rayonu





Müstəqil Azərbaycanın memarı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə təşkil olunmuş bayram şənlikləri yurdumuzun hər yerində olduğu kimi, Şahbuzda da böyük coşqu ilə keçirilib. Dünən ulu öndərin Şahbuz şəhərinin mərkəzində ucaldılmış büstünü ziyarət edərək tər gül dəstələri düzən şahbuzlular görkəmli dövlət xadiminə olan dərin ehtiramlarını bir daha göstəriblər. Ümummilli liderin mənalı ömür yolu, zəngin ictimai-siyasi fəaliyyəti, xalqa və dövlətçilik ideallarına sədaqəti bütün azərbaycanlıların müstəqillik arzularının gerçəkləşməsi, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi ilə nəticələnib. Ucqar dağ rayonu Şahbuzun da iqtisadiyyatının dirçəldilməsi, əhalinin rifahının yüksəldilməsi məhz ulu öndərin reallaşan arzularının təcəssümüdür. Şahbuzluların bugünkü həyat keyfiyyəti, rayonda aparılan quruculuq tədbirləri, çəkilən hər yeni yol, abadlaşan hər bir kənd məhz rayon sakinlərinin güzəranının yaxşılaşdırılması istiqamətində görülmüş işlərin nəticəsində mümkün olub. Ümummilli liderin Azərbaycana rəhbərliyinin bütün dövrlərində Şahbuz rayonu ulu öndərin xalqımız qarşısındakı misilsiz xidmətlərinin, ölkəmizin, muxtar respublikamızın inkişafı naminə gərgin əməyinin bəhrələrini görüb. Bu gün də ölkəmizdə ulu öndərin dövlətçilik ideallarına sədaqət və məhəbbətin parlaq nümunəsi kimi həyata keçirilən Heydər Əliyev siyasəti insanlara firavan gələcək vəd edir. Bütün bunları unutmayan şahbuzlular ulu öndərin anadan olmasının 92-ci ildönümünü əsl el bayramı kimi qeyd ediblər.

Şahbuzda səhər saatlarından başlanan bayram şənlikləri axşam geniş konsert proqramı ilə davam etdirilib. Şahbuz Rayon Mədəniyyət Evinin "Batabat" instrumental ansamblının solistlərinin və Azərbaycan Respublikasının Xalq artisti Gülyanaq Məmmədovanın çıxışları rayon əhalisinin bayram əhval-ruhiyyəsini daha da artırıb, bir-birindən gözəl ifalar alqışlarla qarşılanıb.

## Sədərək rayonu

*Bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə olunan Sədərək rayonu XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistan tərəfindən hücumlara məruz qalmış, Naxçıvanın qala qapısı sayılan bu bölgədə 1990-1993-cü illərdə ağır döyüşlər getmişdir. O zaman buradakı vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün və işğalın qarşısının alınması üçün öz siyasi nüfuzu, zəngin dövlətçilik və idarəetmə təcrübəsi sayəsində dünyanın diqqətini burada baş verən hadisələrə yönəltmişdir.*





Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə Sədərək rayonunun erməni işğalından qorunması, bölgənin sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, sərhəd bölgəsinin sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmışdır.

Ulu öndərimizin tövsiyələrinə uyğun olaraq, bu tarixi və strateji Azərbaycan rayonuna bu gün də xüsusi diqqət yetirilir. Sədərəklilər bu gün ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla xatırlayırlar. Onlar qürur duyurlar ki, sakini olduqları rayonun mərkəzi Azərbaycan xalqının və ümumilikdə, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır.

Dünən Sədərək rayonunda da rayon ictimaiyyətinin nümayəndələri Heydərabad qəsəbəsinin mərkəzində ucalan ulu öndərin büstünü ziyarət edib, önünə gül dəstələri düzüblər.

Həmin gün axşam rayon mərkəzi Heydərabad qəsəbəsindəki Heydər Parkının önündə bayram konserti olub. Konsertdə Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsinin "Uğur" ansamblı üzvlərinin və tanınmış müğənni Vüsal Əliyevin ifasında səslənən musiqi nömrələri və mahnılar tədbir iştirakçılarında xoş ovqat yaradıb.

**Xəbərlər şöbəsi**


**ŞƏRQ qapısı**

Baş redaktor:
TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 377